# Münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub



"Cibuti Respublikası ilə Azərbaycan arasında iqtisadi əlaqələr istənilən səviyyədə olmasa da, ölkələrimiz bu əməkdaşlığın dərinləşdirilməsinə əhəmiyyət verir".

Bu sözləri dünən Milli Məclisin Sədri Oqtay Əsədov Cibuti Respublikası Milli Assambleyasının nümayəndə heyəti ilə görüşdə dedi.

Ölkələr arasında qarşılıqlı səfərlərin baş tutduğunu xatırladan parlamentin Sədri Azərbaycan və Cibutinin beynəlxalq təşkilatlarda da bir-birini dəstəklədiyini qeyd etdi. Bildirildi ki, Azərbaycan Cibuti Respublikasının ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirir. Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı keçiriləcək tədbirdə iştirak etmək üçün ölkəmizə səfər edən Cibuti Respublikası Milli Assambleyasının sədri Mohamed Ali Huməd bunun tarixi bir tədbir olduğunu vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasındakı əlaqələrin getdikcə inkişaf etdiyini söyləyən qonaq dövlət başçıları və ölkə parlamentləri arasında yaxşı münasibətlərin mövcud olduğunu vurğuladı. Qonaq ümidvar olduğunu bildirdi ki, iki ölkə arasında iqtisadi əməkdaşlıq getdikcə inkişaf edəcək.

***Fərizə ƏHMƏDOVA,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 20 sentyabr.- S.2.